***ALİ MƏCLİSİN İCLASI***

*25 aprel 2024-cü il. Saat 11.34*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin*
*müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar! Hörmətli hökumət nümayəndələri!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının növbəti iclası keçirilir.

Protokolun mənə verdiyi məlumata görə iclasda 35 deputat iştirak edir.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.35 dəq.) |
| İştirak edir | 35 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə görə azı 31 deputat iştirak etdikdə iclasımız səlahiyyətlidir. Bugünkü iclasımız da öz işinə başlamağa səlahiyyətli sayılır.

İclasın gündəliyinə aşağıdakı məsələ verilir:

Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması ilə bağlıdır.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 32-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Buna müvafiq olaraq təqdimatı diqqətinizə çatdırıram:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə.

Azərbaycan Respublikasının Konstitusiyasının 140-cı maddəsinin II hissəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə Ceyhun Ramiz oğlu Cəlilovun namizədliyini təqdim edirəm.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

24 aprel 2024-cü il

Müzakirə olunan məsələ ilə bağlı qərar layihəsi hazırlanmışdır. Əgər etiraz yoxdursa həmin qərar layihəsini sizin diqqətinizə çatdırım.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsini və 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilsin.

Deputatlardan kim qərarın oxunan qaydada qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, yekdilliklə Ceyhun Cəlilov Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin olunmuşdur.

Bugünkü yüksək təyinata görə Ceyhun müəllimi təbrik edirik!

Cənab Prezidentin yüksək etimadına əsasən Ali Məclis də ona yüksək etimad göstərdi. Ali Məclis adından sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq!

Əgər söz demək istəyirsinizsə, kürsüdən deputatlara müraciət edə bilərsiniz. Buyurun!

**C.Cəlilov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

Öncəliklə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri, möhtərəm cənab İlham Əliyevə mənə yüksək etimad göstərərək Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan dövləti həqiqətən də tarixin ən qüdrətli dövrlərini yaşayır. Bunu biz həm ərazi bütövlüyümüzün və suverenliyin bərpası ilə əlaqədar həyata keçirilən hərbi və diplomatik əməliyyatlardan, həm də dövlətin digər istiqamətlərdə siyasətinin nəticəsində əldə etdiyi uğurlardan görürük.

Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan dövlətinin məqsədi Azərbaycan vətəndaşının yüksək rifahıdır. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan muxtar respublikanın təqribən yarım əsirlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuş və hal-hazırda davam etməkdədir.

Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəldilməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir. Bu inkişaf strategiyasının davamı olaraq möhtərəm cənab Prezidentin 5 iyun 2023-cü il tarixli müvafiq Sərəncamı ilə "Naxçıvanın Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın təsdiq edilməsi ilə Naxçıvanın Muxtar Respublikasının inkişafına dair prioritet istiqamətlər müəyyən edilmiş və ölkə başçısı tərəfindən bütün istiqamətləri əhatə edən tapşırıqlar verilmişdir. Dövlət Proqramının icrasının Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümünə təsadüf etməsi bu istiqamətdə qarşıya qoyulan hədəflərin icrasında təşviqedici mexanizm qismində çıxış edir.

Biz də qarşımızda duran vəzifəyə görə tədbirlərin kompleks və uğurlu icra edilməsi məqsədilə səylərimizi əsirgəməyəcəyik.

Sonda bir daha muxtar respublika rəhbərliyinə, təqdimatı yekdilliklə qəbul etdiyinə görə deputatlara öz təşəkkürümü bildirirəm və qarşıya qoyulan vəzifələrin həlli üçün əlimdən gələni edəcəyimə sizi əmin edirəm. Çox sağ olun!

**Sədrlik edən.** Sağ olun! Sizi bir daha təbrik edir, uğurlar arzulayırıq!

Bir qısa haşiyə çıxacağam. Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına görə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti icra hakimiyyətini həyata keçirir. Nazirlər Kabineti muxtar respublikada yuxarı icra orqanıdır, Ali Məclisə tabedir, onun qarşısında hesabat verir. Biz hökumətlə birbaşa sıx işləyən qurumlardan biriyik. Artıq uzun müddətdir ki, Ceyhun müəllimlə işləyirik. Yüksək keyfiyyətlərini dəfələrlə görmüşük. İnanıram ki, öz yüksək keyfiyyətləri ilə hökumətin işinə də fayda verə biləcək.

Bildiyiniz kimi, Ceyhun müəllimin hökumət rəhbəri kimi qarşıda hesabatı var. Biz artıq onu iki komitədə keçirmişik. Yəqin ki, sizinlə yaxın zamanda işçi qaydasında razılaşıb, onu davam etdirib, hökumətin 2023-cü il hesabatını birlikdə müzakirə edəcəyik.

Sağ olun!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifədən azad edilməsi Ali Məclisin həll etdiyi məsələlərə aid edilmişdir. Yeni Baş nazirin təyin edilməsi ilə əlaqədar Səbuhi Məmmədovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi ilə bağlı qərar layihəsi hazırlanmışdır.

Əslində bu, texniki məsələdir, amma prosedura uyğun olaraq qərar layihəsini birlikdə müzakirə edib səsə qoymalıyıq. Qərarı olduğu kimi sizə oxuyuram:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

Qərarı səsə qoyuram. Kim tərəfdardırsa xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, Qərar qəbul edildi.

Hörmətli deputatlar!

Bilirsiniz ki, Ali Məclisin sessiya dövründə Ali Məclisdə təyinatlar, hökumət üzvlərinin təyinatı və azad edilməsi, bilavasitə Ali Məclisdə həyata keçirilir. Növbəti məsələ də bununla bağlıdır.

Ceyhun Cəlilovun Baş nazir təyin edilməsi ilə əlaqədar, o, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilməlidir. Bununla əlaqədar daha bir qərar layihəsi hazırlanmışdır. Onu da diqqətinizə çatdırıram:

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilsin.

Kim qərarının qəbul olunmasına tərəfdardırsa xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, Qərar qəbul edildi.

Müzakirə olunacaq məsələlər bunlar idi. Bununla da Ali Məclisin bugünkü iclasını bağlı elan edim.

Bir daha yeni hökumət başçısına uğurlar arzu edirəm!

Sağ olun!